# Azərbaycanda məsuliyyətli və dayanıqlı bizneslərin yaradılması

## *EY-ın bu prosesdə rolu*

**EY, bizneslərin və təşkilatların yalnız öz şəxsi gəlir və mənafelərini güdməyərək insanların və gələcək nəsillərin yaxşı yaşayış tərzini təmin etmək üçün məsuliyyət daşımaları anlayışını ifadə edən "məsuliyyətli cəmiyyət" (responsible society) ideyasını davamlı şəkildə təqib edir. Bu baxımdan EY-ın Azərbaycana verdiyi töhfələr barədə bizə məlumat verə bilərsinizmi? EY bizneslərə onların Korporativ Məsuliyyət Məcəllələrini (CR Code) və prosedurlarını təkmilləşdirməkdə necə köməklik edir?**

EY, şirkətlərin fəaliyyətinə təsir göstərə bilən bütün komponentləri nəzərə almağa kömək edən xidmətlərin tam spektrini təqdim edir. EY risklərin qarşısının alınması və problemlərin aradan qaldırılması, yüksək maliyyə, əməliyyat və davamlı inkişaf nəticələrinin əldə edilməsində şirkətlərə yardımçı ola bilməsi ilə fəxr edir. Çoxistiqamətli komandasının köməyi ilə EY strateji Korporativ Sosial Məsuliyyətlə (KSM) bağlı ehtiyacların ödənilməsində müştərilərinə dəstək verir.

Qlobal davamlı inkişaf məsələlərinə diqqəti cəlb etmək, KSM strategiyalarının faydası və zəruriliyini Azərbaycandakı şirkətlərə aşılamaq məqsədilə EY tərəfindən bir sıra tədbirlər təşkil olunur. Məsələn, 2015-ci ilin oktyabr ayında müxtəlif yerli və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakıyla Caspian Event Organizers ilə müştərək KSM üzrə konfrans keçirilmişdir. Bundan əlavə, EY əsas məqsədi KSM prinsiplərini yerli bazara yeritmək olan Amerika Ticarət Palatası nəzdində KSM Komitəsinin fəaliyyətində aktiv və mühüm rol oynayır.

KSM strategiyasının digər vacib tərəfi şəffaflıqdır. Bunu nəzərə alaraq EY dəstək, audit və hesabatyazma xidmətlərini göstərməklə KSM hesabatlılığının dəyərlərini təbliğ edir. KSM hesabatları bütün maraqlı tərəflərə şirkətin nə etdiyini nümayiş etdirmək, eləcə də şirkətin işçilər və müştərilər qarşısında daşıdığı öhdəliklərdən əlavə digərlərinin həyatına təsir edən hadisələr, həmçinin təşkilatlarla bağlı öhdəliklərini də göstərmək üçün vacib vasitədir.

**Biznes dayanıqlığı niyə EY-ı düşündürür? Siz öz şirkətinizdə sistemli dayanıqlılıq düşüncəsini necə yeritmisiniz?**

Davamlı inkişaf artıq yalnız dəbdə olan bir anlayış deyil. Bu, strukturlaşdırılmış yanaşmadır. Azərbaycan kimi inkişaf edən bazarlarda imkanların maksimal dərəcədə genişləndirilməsi, eyni zamanda enerji hədlərindən və ekoloji sistemin potensial tutumundan kənara çıxılmaması müstəsna səviyyədə qətiyyət, innovasiya və əməkdaşlıq tələb edir. EY şirkətinin bütün dünya üzrə çalışan 231.000 əməkdaşı hər gün işə bir amal ilə gəlir – daha yaxşı işgüzar dünya quraq. İqlim dəyişiklikləri və davamlı inkişaf üzrə xidmətlər bizim bütün xidmət, coğrafi ərazi və sənaye sahələrimizdə əsas prioritetdir. Davamlı inkişafla bağlı məqsədlərimiz və iqlim dəyişikliklərinə təsiri azaltmaq üçün həyata keçirilən təşəbbüslərimiz bütün əməkdaşlarımıza məlumdur.

Bu gün EY xüsusilə yeni məzunlar üçün ilin ən cəlbedici peşəkar xidmətlər göstərən işəgötürənidir. Biz xidmətlərimizin keyfiyyətinin daim yaxşılaşdırılması üçün imkan yaradan gənc və fəal işçiləri işə cəlb etməyə şadıq. Artıq 20 ildir ki, Azərbaycan bazarında fəaliyyət göstərən komandamız çox müxtəlif tərkibli və dinamikdir. EY şirkətinin Azərbaycandakı filialında Audit üzrə ilk qadın partnyor çalışır, bu da Azərbaycanda partnyor pilləsinə

çatmış qadınların cəmi 40%-ni təşkil edir. Əməkdaşlarımız “Formula 1” kimi müxtəlif irimiqyaslı beynəlxalq tədbirlərin könüllüləri olur. Bundan əlavə müxtəlif xidmət xətlərinin nümayəndələrindən ibarət Xeyriyyə Komitəsi çoxsaylı vəsaittoplama tədbirlərinin həyata keçirilməsində fəal iştirak edir. EY şirkətinin qürurla iştirak etdiyi təşəbbüslərdən biri “Gələcəyini qur” layihəsi olmuşdur. Həmin layihə çərçivəsində əməkdaşlarımız aztəminatlı ailələrdən olan gənclərə 2015-2016-cı təhsil ilində ali məktəblərə daxil olmağa dəstək vermişlər.

**Bir çox yerli şirkətlər biznes dayanıqlığına ciddi yanaşmırlar, hətta bəzi rəhbərlər bunun sadəcə korporativ işlərdən biri kimi vacib olduğunu hesab edirlər. Bəziləri isə biznes dayanıqlığını prosesləri təkmilləşdirmək, artım və inkişafa doğru yönəltmək və müəssisələrinin dəyərini artırmaq məqsədilə dəstəkləməkdənsə ona sırf reputasiya mövqeyindən yanaşırlar. Biznes dayanıqlığı modelini tətbiq etmək üçün inqilabi keçid yolunu təsvir edə bilərsinizmi?**

Sosial məsuliyyətdə fəal və səylə iştirak edən və sosial məsuliyyətə olan ehtiyacı anlayan yuxarı rəhbərliyin kifayət qədər dəstəyi olmadan, heç bir model uğurlu ola bilməz. KSM korporativ mədəniyyətin vacib hissəsinə çevrilməlidir. Dəyişiklik olması üçün hazırda müəyyən ideya və ya ideyalar toplusu haqqında işlədilən təfəkkür modelinə düzəliş edilməlidir.

Ümumiyyətlə, tam KSM özündə aşağıdakıları cəmləməlidir:

- İqtisadi məsuliyyət – mənfəətli olmaq,
- Hüquqi məsuliyyət – qanuna tabe olmaq,
- Etik məsuliyyət – etik olmaq, düz olanı etmək və ziyandan çəkinmək,
- Ixtiyari Məsuliyyət - icmanın inkişafına töhfə vermək və yaxşı korporativ vətəndaş olmaq.

**Ən azı böyük müəssisələr üzrə Korporativ Dayanıqlılıq Hesabatlılığını icbari etmək üçün yeni qanun yaradılmasına ehtiyac görürsünüzmü?**

Bir çox ölkələrdə KSM hesabatlarının verilməsi könüllüdür. Birincisi, hər bir şirkət KSM-in onun üçün əhəmiyyətli olub-olmadığı haqqında özü qərar verir və heç bir digər təşkilat şirkəti sosial məsuliyyətli edə bilməz. Məcburi hesabatvermənin əleyhinə olan dəlillərdən biri də odur ki, məcburi hesabatlarda nəyin açıqlanmalı olduğu qəti surətdə müəyyən edilir: bu isə KSM hesabatlarını əlavə bir öhdəlik hesab edəcək Şirkətin idarə heyətinin maraq dairəsini faktiki olaraq daralda bilər. İnvestorlar və digər maraqlı tərəflərə faydalı olmaq üçün məcburi hesabatların şirkətin icmaya təsirinə və əhəmiyyətliliyinə, açıqlanan məlumatların müqayisə oluna bilməsinə dair əlavə araşdırmalarla müşayiət olunması tələb olunardı ki, beləliklə də irəliləyiş yalnız uzun müddət keçəndən sonra qiymətləndirilə bilərdi.

Digər tərəfdən, hesabatlarda açıqlanmalı olan məlumatlarla bağlı şirkətlərə müəyyən sərbəstliyin verilməsi şirkətlərə bu sahədə yeniliklər tətbiq etmək, nəticələrin izlənilməsində yeni yollar araşdırmaq imkanını verir. Lakin şirkətlərin, xüsusən də iri şirkətlərin, ətraf mühitə və icmaya müəyyən təsir göstərdiyini nəzərə alaraq, hökumətlər qanuni əsasla belə yanaşmanın tətbiq edilməsini tapşıra bilərlər. Bir neçə ölkə bu istiqamətdə addımlar atmışlar. Avropa Birliyi hazırda müəyyən həcmdən böyük olan şirkətlərdən maliyyə hesabatlarından əlavə qeyri-maliyyə hesabatlarının da təqdim edilməsinin tələb olunması istiqamətində irəliləyir.



Orxan Rəcəbov
EY şirkətinin Azərbaycandakı filialında Audit departamentində davamlı inkişaf üzrə məsləhət xidmətləri üzrə menecer

*Orxan Rəcəbov, Durham Universitetinin magistr diplomu, eləcə də Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat və audit ixtisası üzrə bakalavr və magistr diplomlarının sahibidir. Orxan davamlı inkişaf üzrə strateji məsləhətlərin verilməsi və davamlı inkişaf haqqında hesabatların auditi üzrə ixtisaslaşır. Orxan Azərbaycanda davamlı inkişaf sahəsində peşəkar icmanın formalaşması prosesində fəal iştirak edir.*